əməkdar incəsənət xadimləri və mədəniyyət işçiləridir. Respublikamızda ilk dəfə "Balet sənəti", "Kino rejissoru", "Kino operatorluq", "Xalçaçılıq", "Modalyer rəssam", "Aşıq sənəti", "Reklam işləri üzrə rəssam", "Teatr dekorativ sənəti üzrə rəssam", "Estrada rejissoru" və başqa ixtisaslar açılmışdır. Etiraf edirik ki, bütün bu uğurlar Heydər Əliyevin qayğısının nəticəsi kimi olduqca dəyərlidir.

O xalq böyükdür ki, cavanları yaşlılardan, yaşlıları cavanlardan öyrənirlər. Heydər Əliyev müdrik pedaqoq kimi gənclərə məsləhət bilirdi ki, "Siz hələ gəncsiniz. Qarşınızda böyük yaradıcılıq yolu vardır. İstərdim ki, sizdən əvvəlki sənətkarlar - Lütvəli Abdullayev kimi, Rəşid Behbudov kimi, Leyla Bədirbəyli kimi öz üzərinizdə çalışasınız. Mən onları çox yaxından tanıyıram, onlarla dost idim. Onlar öz üzərində necə çalışırdılar, necə işləyirdilər, necə yeni nailiyyət əldə edirdilər, mən bunu sizə də tövsiyə edirəm".

İstedad xalqın milli sərvətidir. Ona qayğı, onun pərvazlanması üçün şərait yaratmaq ulu öndərin fəaliyyətində gündəmdə duran məsələlərdən olmuşdur. O deyirdi: "İstedadı cəmiyyətdə, xalqa göstərmək lazımdır, ona istedadını inkişaf etdirmək üçün kömək etmək, istedada yol göstərmək lazımdır... istedadlar - uşaqlar, gənclər də bilsinlər ki, onların böyük qayğısını Azərbaycan prezidenti özü şəxsən çəkəcəkdir" Heydər Əliyev həmişə vədinə əməl etmişdir. O, 1996-cı ilin iyunun 22-də ölkəmizdə gənc istedadların "Qızıl kitabı", "Gənc istedadlar fondu", "Qızıl kitaba adı düşən gənc istedadlara xüsusi təqaüd verilməsi haqqında", "Azərbaycanda gənc istedadlara dövlət qayğısı" adlı fərmanı imzalamışdır. "Qızıl kitab"a adı düşmüş ilk istedad 15 yaşlı İncəsənət gimnaziyasının şagirdi Surxay Əskərov olmuşdur. O hazırda Ü.Hacıbəyov adına Musiqi Akademiyasında Azərbaycanın Xalq artisti, görkəmli sənətçimiz Fidan xanım Qasımovanın tələbəsidir.

Heydər Əliyevin uşaq və yeniyetmələrə, gənclərə böyük məhəbbət və qayğısını onun "Müstəqil Azərbaycanın gələcəyi gənclərindir", "Azərbaycan prezidentinin gənclərlə görüşü", Uşaqların Beynəlxalq Televiziya və Radio günü münasibətilə "Uşaqlar dünyanın sevincidir" devizi altında keçirilmiş şənlikdə dəfələrlə görmüşük. O, uşaq və yeniyetmələrin, gənclərin yüksək estetik zövqə malik olmalarını, milli-mənəvi dəyərlərimizə yiyələnmələrini, vətənpərvər olmalarını müstəqillik dövrünün ən zəruri məsələsi kimi qiymətləndirirdi. Ulu öndər gənclərə müraciətlə demişdi: "Gənclərimiz milli ruhda tərbiyə olunmalıdırlar, bizim milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidirlər. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidirlər, keçmişimizi yaxşı bilməlidirlər, dilimizi yaxşı bilməlidirlər, milli dəyərlərimizi yaxşı bilməlidirlər. Hər bir gəncimiz vətənpərvər olmalıdır. Vətənpərvərlik böyük məfhumdur. Bu sadəcə olaraq orduda xidmət etmək deyil. Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq - budur vətənpərvərlik".

Azərbaycanda kino incəsənətini yaşatmaq, onun fəaliyyətində müstəqil respublikamızın bugünkü nailiyyətlərini görmək Heydər Əliyevin arzusu idi. "Kino bizim xalqımızın salnaməsidir. Azərbaycan kinosunda dəyərli əsərlər yaradılıb. Bunu heç cürə unutmaq olmaz. Kinomuzun tarixi və bu sahədə əldə etdiyimiz nailiyyətlər bizim milli sərvətimizdir" deyən ulu öndərin müstəqillik dövrünün çətinliklərinə baxmayaraq kinoya, kino işçilərinə qayğısı kino işçilərini yeni filmlər yaratmağa ruhlandırmışdır.

Heydər Əliyev milli mədəniyyətimizin və incəsənətimizin bəşəri nailiyyətləri ilə həmişə fəxr etmişdir. O, dəfələrlə Rəşid Behbudovun, Müslüm Maqomayevin, Fidan və Xuraman Qasımova bacılarının, Fərhad Bədəlbəylinin və b. sənətçilərin nailiyyətlərilə fəxr etdiyini söyləmişdir. Özünəməxsus estetik zövqü olan Heydər Əliyev Azərbaycanın milli mədəniyyətini, musiqisini çox sevirdi. Müslüm Maqomayevin ona ithaf etdiyi "Azərbaycan" mahnısı haqqında Heydər Əliyev böyük istəklə demişdi: "Mən bu mahnını çox sevirəm, o məni çox həyəcanlandırır, çünki mahnıda deyilir ki, "Azərbaycan həqiqətən həyatımın mənasıdır".

Mədəniyyətimizin və incəsənətimizin ölkəmizin hüdudlarından kənarda qazanılan nailiyyətlərinin təminatçısı olan Heydər Əliyev respublikamızda xoreoqrafiya sənətinin inkişafının, bu sahədə fəaliyyət göstərən insanların da təəssübkeşi idi. Azərbaycan Opera və Balet Teatrının balet truppasının, Azərbaycan Dövlət Mahnı və Rəqs kollektivi əməkdaşlarının əmək haqlarının yüksək dərəcədə artırılması bu təəssübkeşliyin nəticəsi olmuşdur.

***Böyük kəşflər və mənəvi sərvətlər yaratmış xalq fəxr edə bilər, ona görə ki bu kəşflər, mənəvi sərvətlər bəşəri xarakter daşıyır, illər keçdikcə dünyəviləşir. Heydər Əliyev böyük kəşflər, mənəvi sərvətlər yaratmış Azərbaycan xalqının böyük oğlu olmuşdur. "Mən fəxr edirəm ki, azərbaycanlıyam" deyən Heydər Əliyevin şəxsiyyəti, mədəniyyət dünyası nəsillərə nümunədir.***

**Əlәkbər MƏMMƏDOV,**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin professoru**